

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 234 (21.644)

*8 dekabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti, Kolumbiyanın sabiq Prezidenti Andres Pastrananın başçılıq etdiyi, Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario David və Mərkəzçi Demokratlar İnternasionalının Avrasiya, Asiya və Sakit okean regionu üzrə baş koordinatoru Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın Azərbaycana səfərinin səmərəli və maraqlı keçəcəyinə, bu səfərin əməkdaşlığa öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.

Mərkəzçi Demokratlar İnternasionalının prezidenti, Kolumbiyanın sabiq Prezidenti Andres Pastrana qurumun həyata keçirdiyi işlər barədə məlumat verib.

Görüşdə Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondonun etimadnaməsini qəbul edib.

## Əbədiyaşar lider

### *Heydər Əliyev Muzeyində bu mövzuda elmi-praktik konfrans olub*



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Əbədiyaşar lider" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun tələbələri iştirak ediblər.***

Elmi-praktik konfransda Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyevin, Naxçıvan Dövlət Universitetinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun, Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti Abdulla Mustafayevin məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, ümummilli liderimiz elə bir fenomen şəxsiyyətdir ki, zaman keçdikcə, illər ötdükcə Onun böyüklüyünü daha dərindən dərk edirik. Xalqımızın böyük oğlu Azərbaycanın uğurlu gələcəyinə işıq salan mükəmməl inkişaf konsepsiyası hazırlayıb və mənalı ömrünü bu ideyaların həyata keçirilməsinə həsr edib. Görkəmli dövlət xadimi Azərbaycanın müqəddəratının həll olunduğu bütün təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatıb, onu zamanın ağır məngənəsindən xilas edib.

Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinə iqtisadi və milli-mədəni yüksəliş dövrü kimi daxil olub. Həmin dövrdə xalqımızın böyük oğlunun rəhbərliyi ilə respublika həyatının bütün sahələrində kompleks tədbirlər həyata keçirilib, Azərbaycan ittifaq respublikaları içərisində inkişaf tempinə görə öncül mövqeyə yüksəlib, tarixi-mədəni irsimiz, milli dəyərlərimiz qorunub yaşadılıb, gələcək müstəqilliyin bünövrəsi qoyulub.

Ümummilli liderimizin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövr təkcə bu qədim diyarın deyil, bütün Azərbaycanın gələcək taleyində mühüm rol oynayıb. Naxçıvanın ağır günlər yaşadığı, blokada çətinliyinin və işğal təhlükəsinin getdikcə dərinləşdiyi bir vaxtda ulu öndərin rəhbərliyi altında muxtar respublikada tarixi qərarlar qəbul edilib, dövlət müstəqilliyinin bərpasının əsası qoyulub.

Bildirilib ki, 1993-cü ildə Azərbaycanda xaos, vətəndaş müharibəsi alovlananda xalqımız ümummilli liderinə yenidən üz tutdu, nicatını Onun hakimiyyətə qayıdışında gördü. Görkəmli dövlət xadimi Azərbaycanı hərc-mərclikdən, müstəqilliyini itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitlik və hərtərəfli inkişaf yoluna çıxardı. 1993-2003-cü illərdə Vətənə və xalqına xidmət nümunəsi göstərən ümummilli liderimiz doğma Azərbaycanın davamlı inkişafını təmin etdi.

Ümummilli liderin irsi böyük bir xəzinədir. Bu irsi öyrənərək ondan doğma vətənimiz Azərbaycanın rifahı naminə yararlanmaq isə öz vətənini və millətini sevən hər bir azərbaycanlının mənəvi borcudur. Dahi şəxsiyyət parlaq ideyaları, məqsədyönlü fəaliyyəti ilə hələ sağlığında xalqının ümummilli lideri adını qazanıb.

Elmi- praktik konfransda "O, Heydər Əliyev idi" sənədli filmi nümayiş etdirilib. Sonra tələbələr muzeyin ekspozisiyası ilə tanış olublar.

**✍ Səbuhi HÜSEYNOV**

***Bu mövzuda Naxçıvan Dövlət Universitetində Heydər Əliyev universitetinin 209-cu məşğələsi keçirilib.***

## Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr



Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycanın otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyinin görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bilavasitə bağlı olduğunu bildirib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin ilk dövründə gördüyü işlər xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edib. Məhz ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində o illərdə Azərbaycanda fəal quruculuq işlərinə başlanılıb, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edilib, çoxsaylı sənaye müəssisələri yaradılıb, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri üçün yeni binalar inşa edilib, yeni yaşayış massivləri, yollar salınıb. Rektor bildirib ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla davam etdirilir, ölkəmiz yeni-yeni nailiyyətlərə imza atır.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı, dosent Rəsul Bağırov "Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr" adlı məruzəsində ümummilli liderimizin fəaliyyətinin Naxçıvan dövründən, taleyüklü məsələlərin həllindəki əvəzsiz xidmətlərindən söz açıb. Vurğulanıb ki, xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın müstəqillik yolunda qarşılaşacağı çətinlikləri hələ ölkəmizə rəhbərliyinin birinci dövründə görür, sovet totalitar rejiminin sərt təzyiqlərinə baxmayaraq, bu günümüz üçün ən zəruri olan həyati problemləri məharətlə həll edir, ölkəmizin siyasi və iqtisadi müstəqilliyinə şərait yaradır, Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atmaqla bugünkü dövlət müstəqilliyimizin möhkəm təməlini qoyurdu.

Məruzəçi həmin dövrdə Naxçıvanın da sürətli inkişaf yoluna qədəm qoymasından, o illərdə həyatımızın bütün sahələrində əsaslı dəyişikliklərə nail olunmasından, insanların həyat və yaşayış səviyyəsinin yüksəldilməsindən də bəhs edib.

Sonda "Tanrı payı" adlı sənədli film nümayiş olunub.

**Nərmin CABBAROVA**

## Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin III konfransı keçirilmişdir



***Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin III konfransı keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədr müavini Yulət Vəliyev gündəlikdə duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin yeni Nizamnaməsi qəbul ediləcək, komitənin hesabatı dinləniləcək, daha sonra komitənin yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Yaşar Vəliyev hesabat məruzəsi ilə çıxış edərək bildirmişdir ki, komitə hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. Ötən dövrdə komitə iş otaqları ilə təmin edilmiş, əməkdaşlara hərtərəfli iş şəraiti yaradılmış, onların əməkhaqları artırılmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin əsas fəaliyyəti muxtar respublika ərazisində əhalinin aztəminatlı təbəqəsinə, həmçinin müharibə və təbii fəlakətlər zamanı zərərçəkmiş insanlara tibbi-sosial, humanitar və digər xidmətlərin göstərilməsindən ibarətdir. Hazırda muxtar respublikada Qızıl Aypara Komitəsinin şəhər və rayon bölmələri üzrə 36 mindən çox üzvü var. Cəmiyyətin sosial həyatında mühüm rol oynamış, xeyriyyəçilik ənənələrinə malik Qızıl Aypara Komitəsi 2012-2016-cı illərdə öz fəaliyyətini komitənin Nizamnaməsinə və iş planına əsasən qurmuşdur. Hər ilin yanvar ayı ərzində İdarə Heyətinin iclasları keçirilmiş, işdə olan nöqsanlar müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Yaşar Vəliyev komitəyə göstərilən dövlət qayğısına görə əməkdaşlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

İdarə Heyətinin yeni tərkibi seçildikdən sonra heyət üzvlərindən Cavidan Həsənova və Elçin Əsgərov çıxış edərək bildirmişlər ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinə sədrlik etmiş Yaşar Vəliyevin bacarığını, işgüzar qabiliyyətini və təşkilatçılığını nəzərə alaraq onun yenidən komitənin sədri vəzifəsinə namizədliyini irəli sürürlər.

Təklif yekdilliklə dəstəklənmişdir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Yaşar Vəliyev ona göstərilən etimada görə İdarə Heyətinin üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir.

Nəzarət-Təftiş Komissiyasının say tərkibi müəyyənləşdirildikdən və komissiya üzvləri seçildikdən sonra konfransın qərar layihəsi oxunmuş və yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransda çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, ictimai təşkilatlar da hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, onların fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Belə təşkilatlardan biri də Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsidir. Ötən dövrdə komitə üçün iş otaqları ayrılmış, fəaliyyəti üçün zəruri şərait yaradılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən, 2013 və 2016-cı ildə komitə əməkdaşlarının əməkhaqları 10 faiz artırılmışdır. Qeyd olunmuşdur ki, bu gün keçirilən Qızıl Aypara Komitəsinin III konfransında komitənin yeni Nizamnaməsi qəbul edildi. Nizamnaməyə əsasən, komitənin strukturunda mühüm dəyişikliklər edilmişdir. Bu dəyişikliklər komitənin fəaliyyətinin səmərəli təşkilinə geniş imkanlar verəcəkdir. Göstərilən dövlət qayğısı və qəbul edilən yeni Nizamnamə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin üzərinə mühüm vəzifələr qoyur. Komitə bundan sonrakı fəaliyyətində ciddi dönüş yaratmalı, şəhər və rayon bölmələrinin, eləcə də ilk təşkilatların fəaliyyətinə nəzarəti artırmalı, görülən işlərin vaxtlı-vaxtında müzakirəsini təmin etməlidir. Aid təşkilatlarla əməkdaşlıq edilməli, tibbi-sosial, humanitar və digər xidmətlərin göstərilməsinə hazır olmalı, ilk yardım proqramları hazırlanmalı, maarifləndirici tədbirlər keçirilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri komitənin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini bildirmiş, əməkdaşlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Konfransa Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Yaşar Vəliyev yekun vurmuşdur.

**✍ Səbuhi HƏSƏNOV**



**Azərbaycanın özü qədər əbədi**

# Ümummilli lider Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu

**Ulu öndər Heydər ƏLİYEV: *İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda, bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam... Hər bir vicdanlı vətəndaş anlamalıdır ki, bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının müstəqilliyini qorumaq əzmindən asılıdır.***

*Azərbaycan dünyanın o ölkələrindəndir ki, burada ilkin dövlətçilik ənənələri çox qədimlərə – eramızdan əvvəl üçüncü minilliyə qədər gedib çıxır. O zamandan ötən 5 min il ərzində ölkəmiz, ölkəmizin yerləşdiyi coğrafiya dünya siyasətinin əsas nöqtələrindən olmuşdur. Buna görə bütün tarixboyu öz dövlətçiliyini qurmaq və qorumaq uğrunda gərgin mübarizə aparmış xalqımızı tarixin müxtəlif taleyüklü məqamlarında ağır sınaqlardan çıxarmaq vəzifəsi qüdrətli sərkərdələrin, böyük dövlət xadimlərinin üzərinə düşmüşdür.*

Bu baxımdan XX əsr xüsusi bir mərhələ təşkil edir. Müsəlman Şərqində ilk demokratik cümhuriyyət məhz bu yüzillikdə, 1918-1920-ci illərdə Azərbaycanda qurulmuşdur. Lakin bu cümhuriyyətin ömrü uzun olmadı. Fikrimizcə, həmin dövrdə xalq kütlələrinin qüvvəsini müstəqil dövlətçiliyin qurulmasına və qorunmasına səfərbər edərək, onu öz arxasınca apara bilən ümummilli liderin olmaması Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəblərindən idi.

Müstəqil Azərbaycan dövlətinin təməlinin qoyulması, onun qurulması və inkişafını təmin etmək missiyası isə böyük Heydər Əliyevin taleyinə yazılmışdı. Əsrlər boyu əldə edilə bilməyən siyasi nailiyyətlər məhz ulu öndərin Azərbaycana rəhbərliyi dövründə gerçəkləşmişdir. Nəticədə, 1970-80-ci illərin sosial-iqtisadi və milli-mənəvi dirçəliş mərhələsindən sonra 1990-cı illərdə Azərbaycan müstəqil demokratik, hüquqi dövlət kimi beynəlxalq qurumlar, dünya dövlətləri tərəfindən tanınmış, demokratiya yolunda inamla irəliləmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müstəqil dövlətçilik konsepsiyasının ilk istiqaməti 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı günbəgün artan fəal xarici dəstəkli erməni təcavüzü fonunda yaranan ictimai-siyasi böhranı, birbirini əvəz edən prinsipsiz, səriştəsiz və şəxsi mənafe güdən siyasi iqtidarların yaratdığı, müstəqilliyimizə böyük təhdid təşkil edən cəmiyyətdəki hərbi-siyasi anarxiyanı, gərgin şəraiti aradan qaldırmaq, 1993-cü ildə kulminasiya nöqtəsinə çatan vətəndaş qarşıdurmasının və ölkədaxili müharibənin alovlanmasının, ayrı-ayrı süni milli separatizm ocaqlarının yaradılmasının qarşısını almaq, erməni işğalını dayandırmaq kimi taleyüklü məsələləri ehtiva edirdi. Çünki 1991-ci ildə dövlət müstəqilliyimiz bərpa edildikdən sonra Azərbaycandakı mövcud hakimiyyət qurumları keçmiş sovet strukturlarını kor-koranə təkrarlayırdı. Hakimiyyətlərin bölünməsi prinsipi sözdə elan edilsə də, dövlətçilikdə real qanuni-hüquqi əsası təsbit olunmamışdı. Ermənistanla aparılan uğursuz müharibə nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, iqtisadi potensialın məsuliyyətsizcəsinə dağıdılması ulu öndər Heydər Əliyevə əvvəlki iqtidarlardan qalan dəhşətli "miras" idi.

Məhz buna görə 1993-cü il oktyabrın 3-də xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən görkəmli dövlət xadimi Heydər Əliyev qarşıda duran vəzifələri ümumiləşdirərək deyirdi: ***"Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq, vətəndaşların rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır".***

***"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır"***, – deyən ulu öndər Heydər Əliyev özünün dövlət idarəçiliyindəki zəngin təcrübəsinə və hərtərəfli siyasi biliklərinə istinad edərək qısa müddətdə xalqımızın gələcək taleyini həll edən düzgün qərarlar qəbul etmiş və ölkəmizi düşdüyü ağır böhrandan çıxarmağa nail olmuşdur. Qarşıdakı taleyüklü vəzifələrin mürəkkəbliyi, cəbhə bölgəsində hərbi vəziyyətin, cəmiyyətdəki mənəvi-psixoloji durumun ağırlığı, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin aktuallaşması 1994-cü ilin mayında atəşkəs barədə sazişin imzalanması ilə nəticələnmişdir. Ağır şəraitdə zərurət üzündən qəbul edilmiş atəşkəs haqqında qərar siyasi sabitliyə, iqtisadi inkişafa və hərbi üstünlüyə nail olmaq, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, məqsədyönlü xarici siyasətin formalaşdırılması üçün son dərəcə əhəmiyyətli idi. Yaranmış şərait 1994-1995-ci illərdə ölkədəki qanunsuz silahlı birləşmələrin, mütəşəkkil cinayətkar dəstələrin sürətlə ləğvinə imkan vermişdir. Bütün bunlar isə qüdrətli Azərbaycan Ordusunun yaradılması ilə müşayiət olunmuşdur.

Ümummilli liderimiz 1995-ci ildən sonra Azərbaycanda iqtisadi geriləmənin qarşısını almağa, növbəti ildən isə müstəqillik dövründə ilk dəfə iqtisadiyyatın inkişaf tempini təmin etməyə nail olmuşdur. Məhz bundan sonra ölkəmizin iqtisadi qüdrətinin artması, tərəqqi yoluna qədəm qoyması, həmçinin mötəbər beynəlxalq qurumlara üzv seçilməsi həmin uğurlu siyasətin məntiqi yekunu idi. Bu siyasətin ilk uğurlu nəticəsi dünyanın inkişaf etmiş ölkələrini təmsil edən neft şirkətləri ilə 1994-cü il sentyabrın 20-də bağlanmış "Əsrin müqaviləsi"dir. Ulu öndər Heydər Əliyevin vurğuladığı kimi, bu müqavilənin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı. Bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu illərdir Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin ölkəyə gətirdiyi böyük iqtisadi gəlir təsdiqləyir.

Ulu öndərimizin müstəqil dövlət quruculuğu siyasətinin ən mühüm və başlıca cəhəti – ***"Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir"*** – müdrik kəlamında ifadə edilmişdi. Dövlətçiliyin möhkəmləndirilməsi, bunu hüquqi baxımdan təmin etmək üçün yeni qanunvericilik bazasının yaradılması, vətəndaş cəmiyyəti prinsiplərini inkişaf etdirmək, əsas insan və vətəndaş hüquq və azadlıqlarını təmin etmək xalqımızın böyük oğlu Heydər Əliyevin müstəqil dövlət quruculuğu prosesində növbəti prioriteti idi. Bu baxımdan ulu öndərin töhfələrindən biri bilavasitə onun özünün rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyasıdır. Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə hüquqi, sosial dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün möhkəm zəmin yaratmışdır. Konstitusiyanın qəbul edilməsi ilə Azərbaycanda hakimiyyətlərin bölünməsinin hüquqi əsasları bəyan olunmuş və bu əsaslar real həyatda öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, ***"İdarəçilik təcrübəsi olmayan adam dövlətə rəhbərlik edə bilməz"***. Bu baxımdan o, dövlət idarəçiliyi üçün yeni, gənc kadrların yetişdirilməsini, bundan ötrü zəruri bazanın formalaşdırılmasını vacib hesab edirdi. Ulu öndər dövlət quruculuğuna istedadlı, bacarıqlı, zəkalı, əxlaq və mənəviyyatca təmiz gənclərin cəlb olunmasına böyük əhəmiyyət verir, dönə-dönə qeyd edirdi ki, bizə müstəqil Azərbaycan üçün müasir idarəçiliyi mənimsəyən, yeni tərzdə düşünən, beynəlxalq aləmdən baş çıxaran müasir təfəkkürlü kadrlar lazımdır. ***"Dövlət idarəçiliyində beynəlxalq təcrübə ilə yanaşı, yerli xüsusiyyətlər də nəzərə alınmalıdır"***, – deyən dahi şəxsiyyət Heydər Əliyevin bu sözləri onun bu mühüm siyasi məsələdə belə, milli-mənəvi dəyərlərimizə nə qədər bağlı bir şəxsiyyət olduğunu göstərirdi. Ümummilli lider çox yaxşı bilirdi ki, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi nəinki yüksək peşəkarlıq və zəkası ilə, həmçinin yüksək mənəvi keyfiyyətləri, özünün vətənpərvərlik və Vətənə hədsiz sədaqəti ilə seçilən kadrların hazırlanmasını tələb edir.

Görkəmli dövlət xadimi Heydər Əliyev məhz bu tələbatdan çıxış edərək milli-mənəvi dəyərlərin dövlətçilik fəaliyyətində həyati əhəmiyyətini qeyd edir və bu, onun dövlətçilik konsepsiyasının qeyd-şərtsiz ideoloji istiqamətini təşkil edirdi: ***"Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapmışdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir, bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir. Biz bunların hamısı ilə fəxr etməliyik".***

Bu baxımdan ulu öndər Heydər Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş demokratik ölkələri sırasına çıxararkən milli-mənəvi dəyərlərin, milli kimliyimizin, Azərbaycançılıq ideyasının qorunub saxlanılmasına, inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə xüsusi önəm verirdi: ***"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır".***

Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi kimi tarixi bir qərara imza atan ulu öndər, əslində, bu qərarla başlatdığı bütün dünyada yaşayan azərbaycanlıların vahid Azərbaycan dövləti ideyası ətrafında birləşdirilməsi hərəkatını Azərbaycan Respublikasının Prezidenti kimi uğurla başa çatdırmışdır. Azərbaycançılıq əsas milli ideya kimi həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılar üçün əsas məfkurəyə çevrilmişdir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının Birinci Qurultayının keçirilməsi milli həmrəylik hərəkatının 16 dekabr qərarından sonra ikinci böyük hadisəsi idi.

Ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik nəzəriyyəsindəki çox mühüm və taleyüklü məsələlərdən biri də dövlətçilikdə varisliyin təmin olunması idi. Hələ 1992-ci il noyabrın 21-də Naxçıvanda ulu öndərin liderliyində yaradılan Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapan varislik və yaradıcı təkamül prinsiplərinin həyati əhəmiyyətinə xalqımız 2003-cü ildə şahidlik etdi. Həmin il oktyabrın 1-də Azərbaycan xalqına müraciətində ulu öndər ölkə Prezidenti vəzifəsinə ən layiqli namizəd kimi o zaman üçün gənc və çox perspektivli siyasətçi, cəmiyyətdə böyük nüfuza malik olan İlham Əliyevi göstərərək deyirdi: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Ulu öndərin inam və qətiyyətlə dediyi bu sözlər Onun böyük əziyyətlər hesabına xalqımızla birlikdə qurduğu müstəqil Azərbaycan dövlətini əmin əllərə etibar etmək kimi müqəddəs bir amaldan doğurdu. Bunu yaxşı başa düşən xalqımız öz dahi rəhbərinin müraciətinə mütəşəkkilliklə dəstək verərək 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə möhtərəm İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçməklə ölkəmizdə Heydər Əliyev dövlətçilik siyasətinin davamına olan arzusunu reallaşdırdı.

*Beləliklə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil dövlət quruculuğu konsepsiyasının ayrı-ayrı istiqamətlərinin təhlili bu böyük dövlət xadiminin xalqımız üçün, dövlətçiliyimiz üçün müstəsna bir şəxsiyyət olduğunu bir daha isbatlayır. Çünki bəşər tarixinin nadir hallarda yetişdirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə bütün mənalarda dəf edərək müstəqil Azərbaycan dövlətini qurmuş, onu möhkəmləndirmiş və dünyada layiqli yerini təmin etmişdir. O, eyni zamanda özünün fitri istedadı, böyük uzaqgörənliyi, siyasi dühası və zəngin təcrübəsi hesabına müstəqil Azərbaycan Respublikasını bütün gələcək nəsillərə şah əsəri kimi əmanət etmiş, ölkəmizi gələcəyə aparan yolları da müəyyənləşdirmiş, milli dövlətçiliyimizin zəngin nəzəri-siyasi irsini yaratmış və bu konsepsiyasının həyata keçirilməsinin ən gözəl nümunəsini göstərmişdir.*

**Elman CƏFƏRLİ**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

# Muxtar respublikada emal sənayesi inkişaf etdirilir

*Müasir Naxçıvanın iqtisadiyyatı özünün rəqabət qabiliyyəti ilə seçilən yüksəkkeyfiyyətli məhsulların istehsalı üzrə ixtisaslaşmış xeyli sayda emal və istehsal müəssisələri, onların əsasında fəaliyyət göstərən çoxlu xidmət obyektləri ilə xarakterizə olunur. Azad bazar iqtisadiyyatı şəraitində muxtar respublikada iqtisadi fəallıq şaxələndikcə burada həyata keçirilən irimiqyaslı layihələrin, işə salınan yeni müəssisələrin də sayı artır. Muxtar respublikada sahibkarlığa, yeni texnoloji avadanlıqlar gətirilməsinə verilən dəstək, daxili bazarın qorunması yolu ilə yerli istehsalçıların işinin stimullaşdırılması burada hər cür istehsal və emal fəaliyyəti ilə məşğul olmaq istəyənlərə geniş imkanlar açır.*



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən emal müəssisələrinin istehsal potensialı və onların mövcud fəaliyyəti ilə bağlı apardığımız kompleks araşdırma bir daha onu göstərdi ki, hər hansı bir obyektiv səbəbdən müəyyən çətinliklər olsa da, ümumilikdə, iqtisadiyyatın inkişafı və insanların yaxşı yaşaması üçün görülmüş bütün qətiyyətli işlər gec-tez öz arzuedilən nəticəsini göstərəcək. Bu baxımdan muxtar respublikada hazırda avtomobildən tutmuş kiçik plastik məmulatlara qədər yüzlərlə növdə və çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal edən 330-dan çox belə istehsal-emal müəssisəsini Naxçıvanın iqtisadi gücünün göstəricisi adlandırmaq mümkündür.

Babək rayonu muxtar respublikanın ən böyük rayonlarından biridir. Babək muxtar respublikanın paytaxtına ən yaxın rayondur. Əhali və təbii ehtiyatlar baxımından çox geniş potensiala malikdir. Muxtar respublikamızın müasir iqtisadiyyatında Babək rayonu 520-dən artıq sahibkarlıq subyekti və onlardan da 80-ə yaxın istehsal təyinatlı müəssisə ilə təmsil olunur. Şübhəsiz, bu qədər sahibkarın fəaliyyəti rayon iqtisadiyyatının inkişaf etməsi, əhalinin yerli məhsullara olan tələbatının ödənilməsi üçün xüsusilə vacibdir. Bundan başqa, yeni iş yerlərinin yaradılması baxımından belə istehsal müəssisələrinin əhəmiyyəti çox böyükdür. Belə ki, rayondakı təkcə istehsalyönlü müəssisələrdə 250-dən artıq iş yeri yaradılıb. Bu müəssisələr arasında müasir texnoloji avadanlıqlarla gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirən "Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti, yüksəkkeyfiyyətli mineral sular istehsal edən Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti, habelə 4 un dəyirmanı və 4 şirniyyat məhsulları istehsal edən müəssisələr, 6 istixana, 3 quşçuluq təsərrüfatı, süd məhsulları, tikinti materialları və çörəkbişirmə üzrə ixtisaslaşmış çox sayda sahibkarlıq subyektləri vardır.

Şərur təbii sərvətləri və əhalisinin tarixi təsərrüfatçılıq ənənələri ilə təkcə Naxçıvan Muxtar Respublikasında deyil, ölkə miqyasında seçilən rayonlardandır. Şərur deyəndə, ilk olaraq, qonaqpərvər, vətənini, torpağını hər şeydən çox sevən insanlar və ildə iki dəfə məhsul əldə olunan bərəkətli torpaqlar, taxıl zəmiləri, geniş bağ-bostanlar yada düşür. Naxçıvan Muxtar Respublikasında sahibkarlığın təşviqi istiqamətində görülən işlər Şərurda da müxtəlif sahələrin inkişafı üçün əlverişli şərait yaradıb. Hazırda Şərurda 400-dən artıq müxtəlif profilli sahibkarlıq subyekti fəaliyyət göstərir ki, bunlardan da 50-yə yaxını müxtəlif xammal ehtiyatları əsasında istehsal-emal fəaliyyəti ilə məşğul olur. Şərur rayonunda fəaliyyətdə olan belə müəssisələrə baxdıqda, burada spirtli içkilər istehsal edən "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyəti, dəyirmançılıq və lavaşbişirmə işi üzrə ixtisaslaşmış "Arpaçay" MMC, habelə bir neçə kərpic və qapı-pəncərə istehsalı sahəsi və dəyirmanlar olduğunu görürük. Bundan başqa, rayonda fəaliyyət göstərən bir neçə istixana kompleksini də istehsalyönümlü müəssisə kimi qeyd edə bilərik.

Culfa rayonu Naxçıvan Muxtar Respublikasının geniş şəkildə əhali və torpaq ehtiyatlarına, əlverişli iqlim və mineral sərvətlərə sahib olan digər ərazi vahidlərindən biridir. Culfalılar əkinçilik, bağçılıq, bostançılıq və heyvandarlıqla məşğul olub, yüksəkkeyfiyyətli məhsul istehsal edirlər. Culfanın təbii-mineral sərvətləri hesabına istehsal olunan kərpic və üzlük daş, qazlı suların və dondurmaların istehsalında mühüm komponent olan bərk karbon qazı burada emal olunub alıcılara çatdırılır. Ümumilikdə, Culfa rayonunda 200-ə yaxın sahibkarlıq sahəsi və onlardan 44 emal-istehsal müəssisəsi vardır. Bu müəssisələrin profillərinə nəzər saldıqda, onların 23-nün çörəkbişirmə üzrə istehsal sahələri olduğu görünür. Bundan başqa, rayonun Darıdağ massivində karbon qazı istehsalı, Kırna kəndində broyler, Yaycı kəndində kərpic və üzlük daş, Bənəniyar kəndində torba və kəpək, Əbrəqunus kəndində meyvə şirələri, Culfa şəhərində göbələk, Camaldın kəndində un istehsalı sahələri vardır. Rayonda 4 mebel və 4 plastik qapı-pəncərə istehsalı sahəsi də fəaliyyət göstərir. Rayonun Kırna, Camaldın və Saltaq kəndlərindəki su dəyirmanları əhalinin yetişdirdiyi taxılın emal olunmasında mühüm əhəmiyyət daşıyır. Ümumilikdə, bütün bu müəssisələrdə 170-dən çox daimi iş yeri yaradılıb. Emal müəssisələri, əsasən, Culfa şəhərində və rayonun Yaycı, Bənəniyar, Əbrəqunus kimi iri kəndlərindədir.

On iki il əvvəl yaradılmış Kəngərli rayonunun iqtisadi inkişafında sənaye və kənd təsərrüfatı məhsulları istehsalı mühüm yer tutur. Muxtar respublikamızda sahibkarlığa göstərilən dövlət qayğısı bu rayonda da kiçik və orta biznesin inkişafına şərait yaradıb, bir çox yeni emal müəssisələri fəaliyyətə başlayıb. Coğrafi cəhətdən əlverişli mövqedə yerləşən Kəngərlidə istehsal olunmuş məhsulların bazar imkanları genişdir. Burada fəaliyyət göstərən istehsal müəssisələrinə nəzər saldıqda, onların rayonun əksər yaşayış məntəqələrində olduğunu görməkdəyik. Bu, bir tərəfdən yerli işçi qüvvəsinin imkanlarından, digər tərəfdən də mövcud xammaldan maksimum istifadəyə imkan yaradır. Hazırda Kəngərlidə yerli xammal əsasında sement və daş məhsulları istehsal olunur. Rayonda istehsal olunan Naxçıvan sementinin, Qarabağlar mərmərinin keyfiyyəti hər kəsə məlumdur. Bunlardan başqa, Qarabağlar kəndindəki "Asnı" balıqçılıq təsərrüfatı, Böyükdüz kəndindəki "Naxçıvan bağları" istixana kompleksi də rayon iqtisadiyyatının mühüm göstəricisidir. Kəngərli rayonunun mərkəzində və digər kəndlərdə yaradılmış müxtəlif kiçik sahibkarlıq subyektləri də vardır ki, bu müəssisələrdə mebel, kərpic, şirniyyat məhsulları və çörək istehsal olunaraq xeyli sayda yerli sakin üçün iş yerləri yaradılıb. Rayonun mərkəzi Qıvraq qəsəbəsindəki "Şahanə" Mebel İstehsalı Müəssisəsi, Qabıllı kəndində müxtəlif çeşidlərdə limonad istehsal edən "Fitonad" Kiçik Müəssisəsi, Xok kəndində fəaliyyət göstərən "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi, Çalxanqala, Qabıllı, Xok, Qarabağlar kəndlərindəki çörək istehsalı sahələri belə emal müəssisələrindəndir. Göründüyü kimi, Kəngərlidə müxtəlif məhsulların emalı və istehsalı üzrə geniş imkanlar vardır. Bütün bunlar rayonda emal sənayesinin gələcəkdə daha da genişləndirilməsi üçün imkanlar açır.

Təbii və mineral ehtiyatlarla zəngin olan Şahbuz rayonunda kiçik sahibkarlığın inkişafı məqsədilə yaradılan istehsal və emal müəssisələri muxtar respublikamızda daxili bazarın yerli məhsullarla təmin olunması üçün böyük əhəmiyyət daşıyır. Şahbuzun ekoloji təmiz "Çınqıllı" və "Böyrək" suları, "Farma Şah" əmtəə nişanı ilə satılan minbir dərdin dərmanı təbii dərman bitkiləri, muxtar respublikamızın daxili bazarının yerli yumurtaya olan tələbatının mühüm hissəsini ödəyən "Badamlı Broyler" quşçuluq təsərrüfatı və digər emal-istehsal müəssisələri bunlar arasındadır.

Ordubad özünün sahib olduğu təbii sərvətləri, turizm ehtiyatları və yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təkcə muxtar respublikamızda deyil, həm də ölkəmizdə və onun hüdudlarından kənarda da tanınıb. Hazırda Ordubadda 21 emaltipli müəssisə vardır. Bunların əksəriyyəti isə çörək bişirilməsi və qapı-pəncərə düzəldilməsi ilə məşğul olub, Ordubad şəhəri və Dəstə kəndində yerləşir. Ordubadda güclü aqrar potensial və bu potensialdan istifadə edə biləcək insan resursları vardır. Gələcəkdə yaradılacaq bütün imkanlardan istifadə olunmaqla Ordubadda güclü emal sənayesi qurmaq mümkündür.

Naxçıvan şəhəri təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin mühüm elm, mədəniyyət və sənaye mərkəzidir. Təkcə onu qeyd edək ki, Naxçıvan şəhərində 35 profil üzrə 100-ə yaxın ixtisaslaşmış sənaye müəssisəsi vardır. Bu müəssisələrdə, ümumilikdə, 2500-dən çox insan daimi işlə təmin olunub. Hər cür çörək, unlu-qənnadı və ağartı məhsulları istehsal edən "Gəmiqaya Bərəkət Qida Məhsulları", Azərbaycanın brend məhsulu "Badamlı"nın istehsal olunduğu "Gəmiqaya Mineral Sular", yaradıldığı vaxtdan bəri 5 mindən çox minik avtomobili istehsal etmiş "Naxçıvan Avtomobil Zavodu", həyata keçirilən quruculuq işlərində mühüm rol oynayan "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi", "Gəmiqaya Mebel Fabriki" və "Dizayn Sənaye Kompleksi", qida sektorunda uğurla fəaliyyət göstərən "Ləzzət Qida Sənaye", "Araz-3" və "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli cəmiyyətləri keyfiyyətli məhsulları ilə həm də ixrac potensialı yaradıblar.

Naxçıvan şəhərində fəaliyyət göstərən çox sayda digər istehsal və emal müəssisələrinin adlarını çəkmək olar. Bu müəssisələrin əksəriyyəti muxtar respublikada daxili bazarın tələbatlarının ödənilməsində xüsusi əhəmiyyət kəsb edir. Böyük bir hissəsinin son 10-15 il ərzində işə salındığı bu müəssisələrin bəziləri keçmişdə mövcud olmuş təcrübə əsasında yenidən qurulub, əksəriyyəti isə tamamən yeni yaradılıb.

Aparılan təhlillər onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında çox geniş profildə emal-istehsal fəaliyyəti üzrə ixtisaslaşmış sənaye potensialı vardır. Sənaye müəssisələri paytaxt Naxçıvan şəhərindən tutmuş rayon mərkəzləri və kəndlərdə olmaqla, regionun hər yerində yaradılıb. Naxçıvanda bir neçə nəfər işçisi olan kiçik sahibkarlıq subyektlərindən tutmuş yüzlərlə işçiləri olan iri müəssisələr fəaliyyət göstərir. Bu müəssisələrin hamısının ümumi bir cəhəti isə ondan ibarətdir ki, onlar yeni dövrün tələbləri, yüksək texnologiyaların tətbiqi və müasir standartlar əsasında işləməklə təkcə muxtar respublikamız üçün deyil, ölkəmizin və dünya bazarının tələbatlarının ödənilməsi baxımından çox faydalı olan məhsullar istehsal etmək gücünə malikdirlər.

Əli CABBAROV

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də inzibati və ictimai yaşayış binalarının istiliklə təmin olunmasıdır.*

# Naxçıvan şəhəri istiliklə etibarlı təmin olunur

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə Naxçıvan şəhərində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq bütün qazanxanalara və istilik şəbəkəsi obyektlərinə baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış mövsümündə Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb. Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılması üçün tədbirlər görülüb, növbətçi elektriklərdən, çilingərlərdən ibarət təmir qrupu, qəza briqadaları yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Yəni, əgər qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq. İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının etibarlı istiliklə təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Hazırda Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 ictimai yaşayış binasının 7634 mənzili və 31 inzibati bina istiliklə təmin olunur. Tərtib edilmiş qrafikə uyğun olaraq İstilik Təsərrüfatı və Mənzil-İstismar idarələrinin əməkdaşları tərəfindən ayrı-ayrı ünvanlarda inzibati və ictimai yaşayış binalarının paylayıcı istilik xətlərinə baxış keçirilir, istilik xətlərinə kənar müdaxilələrin qarşısının alınması məqsədilə əhali arasında maarifləndirici söhbətlər aparılır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan şəhəri istiliklə etibarlı təmin olunur.

# Nəqliyyatda təhlükəsizlik və sərnişindaşımanın təşkili məsələləri müzakirə edilib



"Nəqliyyatda təhlükəsizlik və qış mövsümündə sərnişindaşımanın keyfiyyətinin yüksəldilməsi" mövzusunda seminar-müşavirə keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin aparat rəhbəri Ramin Qəhrəmanov çıxış edib.

Bildirilib ki, 2016-cı il avqust ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Nəqliyyat Nazirliyinə də tapşırıqlar verilib, qış aylarında marşruta buraxılan nəqliyyat vasitələrinin qrafikə uyğun hərəkətinin və texniki sazlığının diqqətdə saxlanılması nazirlik qarşısında bir vəzifə kimi qoyulub.

Qeyd olunub ki, muxtar respublika avtovağzallarının payız-qış mövsümünə hazırlığı diqqət mərkəzində saxlanılıb, avtovağzallarda istilik sistemləri yoxlanılaraq işlək vəziyyətə gətirilib, mövcud çatışmazlıqlar aradan qaldırılıb. Şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha təkmilləşdirilib. Muxtar respublikada avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması məqsədilə yeni nəsil texnologiyalardan istifadə edilməsinə başlanılıb. Naxtel-4G GPS izləmə sistemi hazırda Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin şəhərdaxili və Naxçıvan-Bakı marşrutu üzrə fəaliyyət göstərən avtobuslarının 20-də quraşdırılıb. Bu da o deməkdir ki, nazirliyin müvafiq şöbələri tərəfindən nəqliyyat vasitələrinin qrafikə uyğun işləmələrinə nəzarət ediləcəkdir. GPS-lərin digər avtobuslara quraşdırılması işi davam etdirilir. Yaxın gələcəkdə GPS sistemi sərnişindaşımada geniş yer tutacaq, bütün avtobuslar bu sistemlə təchiz olunacaqlar.

Müqavilə əsasında sərnişin və yük daşınması fəaliyyəti göstərən avtonəqliyyat vasitələrinin texniki müayinədən keçirilməsi "Texniki müayinə komissiyası" tərəfindən başa çatdırılıb. Texniki müayinə zamanı avtomaşınlarda baş verə biləcək yanğın, təbii fəlakət, qəza və digər hadisələrin aradan qaldırılması üçün avtomaşınların yanğınsöndürən balon, çəkic, tibbi çanta və sair ilə təchiz olunmasına xüsusi diqqət yetirilib.

Avtobus və mikroavtobusların qrafikə uyğun hərəkəti və nəqliyyat vasitələrinin texniki sazlığının diqqətdə saxlanılması, marşrut və digər nəqliyyat vasitələrinin qarlı və şaxtalı günlərdə rahat hərəkət etməsi üçün Nəqliyyat Nazirliyinin məsul işçiləri, şəhər Nəqliyyat İdarəsinin əməkdaşları, habelə sürücülər üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərməlidirlər.

Sonda nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov, Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədov görülmüş işlərlə bağlı ətraflı məlumat veriblər.

Kərəm HƏSƏNOV

## Əhalinin sosial müdafiəsi gücləndirilir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, nazirlik 2016-cı ilin 11 ayı ərzində əhalinin sosial təminatı, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində qarşıya qoyulan vəzifə və tapşırıqların icrası ilə bağlı fəaliyyətini davam etdirib. Belə ki, sosial müdafiəyə ehtiyacı olan şəxslərə göstərilən müxtəlif növ xidmətlərin səmərə və keyfiyyətini artırmaq məqsədilə ahıl və sağlamlıq imkanları məhdud şəxslər haqqında informasiya bazası yaradılıb və bu məlumat bazası hər ay yenilənir.***

Hazırda muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan 16 244 şəxsə müxtəlif növ sosial xidmətlər göstərilir. Ümumilikdə, müvafiq əhali qruplarına 37 növ aylıq və birdəfəlik müavinət, təqaüd və kompensasiya ödənilir. Müvafiq kateqoriyadan olan sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə 7131 nəfər əlilə sosial müavinət, 245 şəhid ailəsinə, 1622 müharibə əlilinə və I qrup ümumi səbəbdən əlilə Prezident təqaüdü ödənilir. Aztəminatlı 2073 ailənin 7879 nəfər ailə üzvünə ünvanlı sosial yardım ödənişi həyata keçirilir.

Tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 422 ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində, həmçinin 16 nəfərə Ahıllar evində stasionar sosial-məişət xidməti göstərilir. Qeyd olunan dövr ərzində 64 nəfərin sosial-məişət şəraitinin yaxşılaşmasına, 47 nəfərin isə respublika daxilində müalicəsinə köməklik edilib.

Muxtar respublikada müharibə əlilləri və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Qeyd olunan dövr ərzində 6 Azərbaycan Vətən Müharibəsi iştirakçısı və 4 şəhid ailəsinə yeni mənzillər və 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına “NAZ-Lifan 320” markalı minik avtomobilləri verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası bu kateqoriyadan olan uşaqların təhsil almasına, onların cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradıb. Belə ki, məktəbəqədər təhsil müəssisələrinə sağlamlıq imkanları məhdud 81 uşaq cəlb olunub, ümumtəhsil məktəblərində 895 uşaq, Distant Tədris Mərkəzində isə 23 uşaq təhsil alır. Tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud 273 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin olunub.

Məlumatda bildirilir ki, məhdud fiziki imkanlı şəxslərin asudə vaxtının, o cümlədən istirahətlərinin təşkili, sosial qayğıya ehtiyacı olan şəxslərin ziyarət edilməsi də diqqət mərkəzindədir. Yay mövsümündə məhdud fiziki imkanlı 180 şəxsin Ağbulaq İstirahət Mərkəzində istirahətinin təşkili bu tədbirlərin davamı olub. Həmçinin bir uzunömürlü ailənin brilyant toyu qeyd edilib, sosial qayğıya ehtiyacı olan 10 ailəyə baş çəkilib, onlara ərzaq payı verilib.

Ahıllar evi sakinlərinin və sosial xidmət göstərilən tənha ahıllardan bir qrupunun “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə ziyarəti təşkil edilib. Asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” mahnı və rəqs ansamblı Ahıllar evi sakinləri qarşısında konsert proqramı ilə çıxış edib, həkimlər tərəfindən Ahıllar evinin sakinləri tibbi yoxlamaya cəlb olunub, onlara tibbi məsləhətlər verilib. Sosial xidmət göstərilən tənha ahıllar mütəmadi olaraq evlərində ziyarət edilib, hər həftənin şənbə günü onların həyətlərində iməciliklər təşkil olunub.

Məlumatda o da qeyd olunur ki, məhdud fiziki imkanlı şəxslərin istedadlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin inkişafı diqqət mərkəzində saxlanılıb, onlar arasında şeir, mütaliə, brayl yazı, rəsm və əl işləri üzrə müsabiqələr təşkil edilib, idmanın boccia, stolüstü tennis, voleybol, futzal, yüngül atletika növləri üzrə yarışlar keçirilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda sağlamlıq imkanları məhdud uşaqların rəsm və əl işlərindən ibarət sərgi-müsabiqə də yaddaqalan olub. Müsabiqədə 24 müəllifin 21 adda müxtəlif janrlarda çəkdiyi rəsmlər, 3 adda aplikasiya və 51 adda əl işləri, Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təşkil olunan sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda bu qəbildən olan 39 şəxsin 57 rəsm və 149 əl işi nümayiş etdirilib. Tədbirdə 12 şəxsin, ümumilikdə, 2023 manat məbləğində 5 rəsm və 33 əl işi satılıb.

Bu ilin may ayında İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil edilən Paralimpiya İdman Festivalında Milli Paralimpiya Komitəsinin, İran İslam Respublikasının və Naxçıvan Paralimpiya Federasiyasının, ümumilikdə, 106 nəfər məşqçi və idmançısı iştirak edib. Yaradılan hərtərəfli şərait, göstərilən qayğı paralimpiyaçılarımızın respublika səviyyəli yarışlarda uğurla çıxış etmələrinə zəmin yaradır. Cari ilin noyabr ayında Sumqayıt Paralimpiya İdman Kompleksində keçirilən II uşaq paralimpiya idman oyunlarında muxtar respublikamızı təmsil edən idmançılarımız boccia idman növü üzrə müvəffəqiyyətlə çıxış ediblər.

27-29 noyabr tarixlərində Bakı şəhərində keçirilən sağlamlıq imkanları məhdud şəxslərin VII Ümumrespublika bədii yaradıcılıq müsabiqəsində muxtar respublikanı bədii yaradıcılığın instrumental ifaçılıq, mahnı və bədii qiraət növləri üzrə istedad və bacarıqları ilə fərqlənən 3 nəfər təmsil edib. Müsabiqədə bədii qiraət üzrə nümayəndəmiz 3-cü yerə layiq görülüb.

Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupu mütəmadi olaraq xüsusi qayğıya ehtiyacı olan şəxslər və əsgərlər qarşısında konsert proqramı ilə çıxış edir.

**Xəbərlər şöbəsi**

## İncəsənət, Dil və Ədəbiyyat İnstitutu 2016-cı ili uğurla başa vurur

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun 2016-cı ilə olan hesabat tədbirini bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.***

İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev il ərzində adıçəkilən elm müəssisəsində görülən işlərdən danışıb. Bildirib ki, 2016-cı ilin elmi-tədqiqat işlərinin planına əsasən, 1 problem üzrə 1 mövzunu əhatə edən 5 iş 16 mərhələdə yerinə yetirilib.

Qeyd olunub ki, hesabat dövründə nəşr olunan monoqrafiya və kitabların sayı artıb, elmi əsərlərin keyfiyyət və kəmiyyətinə ciddi fikir verilib. Əgər 2015-ci ilin hesabat dövründə əməkdaşların 151 elmi əsəri nəşr olunmuşdusa, 2016-cı ilin hesabat dövründə onların 158 elmi əsəri çap edilib. 2015-ci ildə 3 monoqrafiya, 3 kitab nəşr olunubsa, bu il bu rəqəm də artıb. Belə ki, hesabat ilində 1-i xaricdə olmaqla, 8 monoqrafiya və 5 kitab çap olunub. Haliyədə isə 5 monoqrafiya çapa hazırlanır. Cari ildə 10 əməkdaşın müxtəlif mətbuat orqanlarında 109 qəzet məqaləsi dərc olunub. Əsərlərdən 23-ü xaricdə çapdan çıxıb. Həmin əsərlərdən 13-ü xaricdə olmaqla, 59-u beynəlxalq kodlu jurnallarda işıq üzü görüb.

Diqqətə çatdırılıb ki, hesabat dövründə institutun Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi kompleks elmi-tədqiqat işlərinin qrant layihələri müsabiqəsində “Azərbaycançılıq ideologiyası işığında Naxçıvan ədəbi mühiti, folkloru, dialekt və şivələri və yer adlarının toplanması, kompleks tədqiqi və nəşri” mövzusundakı layihəsi qalib gəlib. İnstitutun təsis etdiyi “Axtarışlar” jurnalının il ərzində 4 nömrəsi işıq üzü görüb, nəşrin ardıcıllığı təmin edilib.

Bildirilib ki, illik hesabat dövründə institutun 14 əməkdaşı 7-si xaricdə olmaqla, 20 beynəlxalq əhəmiyyətli elmi konfransda iştirak edib. İnstitutla Türkiyənin İstanbul Universitetinin Türkiyyat Araşdırmaları İnstitutu arasında qarşılıqlı əməkdaşlıq edilməsi istiqamətində protokol imzalanması haqqında razılıq əldə olunub.

Tədbirdə bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, həmin institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev çıxış edərək İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun il ərzində həyata keçirdikləri işləri yüksək qiymətləndirib, əldə olunan göstəriciləri qənaətbəxş hesab ediblər.

Tədbirdə 2016-cı ildə institut əməkdaşlarının elmi fəaliyyətlərini əks etdirən videogörüntü və elmi nəşrlərdən ibarət sərgi nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## 100 min tirajla nəşr edilən qəzet Naxçıvanın turizm potensialından yazıb




Türkiyədə nəşr edilən “Yeni Birlik” qəzetində Naxçıvanın turizm imkanları ilə bağlı məqalə dərc edilib. Məqalənin müəllifi Hakan Dikməndir.

Məqalənin müəllifi Naxçıvanın Türkiyəni Asiyadakı qardaşları ilə qovuşduran tək sərhəd qapısı olduğunu qeyd edərək, burada şəhər mədəniyyətinin yaşının 5000 ildən artıq olduğunu bildirir. Naxçıvanın tarixi ilə bağlı bir sıra maraqlı faktlara toxunan müəllif muxtar respublikamızın turizm imkanları ilə bağlı hissəyə belə bir başlıqla başlayır: “Macəra, sağlamlıq və din turizminin, tarixi abidələrin və təbiət gözəlliyinin mərkəzi olan Naxçıvan”. Məqalənin bu hissəsində Duzdağ, Əshabi-Kəhf, Möminə xatın türbəsi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Xan sarayı, Naxçıvan Dövlət Xalça Muzeyi və Qarabağlar haqqında türkiyəli oxuculara maraqlı və cəlbedici məlumatlar verilir.

Qeyd edək ki, Türkiyənin ən məşhur mətbu orqanlarından biri olan “Yeni Birlik” qəzeti gündəlik 100 min tirajla nəşr edilir.

**✍ Elnur KƏLBİZADƏ**

## Könüllü qanvermə aksiyası keçirilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.*

Belə humanitar aksiyalardan biri Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin təşkilatçılığı ilə dekabrın 7-də Culfa Rayon Mərkəzi Xəstəxanasında həyata keçirilib. Mərkəzin qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstəliklərinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və bu, donor qanına tələbatı artırır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qan itirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Xalqımızın donorluğa göstərdiyi rəğbət, insanpərvərlik, xeyirxahlıq və humanizm, həmrəylik bu işin təşkilinə böyük kömək edir. Muxtar respublikamızda da bu istiqamətdə tədbirlər ardıcıl olaraq həyata keçirilir.

Sonra xəstəxananın kollektivi “Sən də bir həyat ver” devizi altında könüllü qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada 33 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Yeniyetmə futbolçular Azərbaycan yığmasına cəlb ediləcək



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə muxtar respublikada futbolun inkişafı məqsədilə Azərbaycanın 15 və 16 yaşlılardan ibarət milli yığma komandasının baş məşqçisi Vüqar Məmmədov Naxçıvana dəvət olunub.***

İki gün Naxçıvanda olan baş məşqçi Naxçıvan Muxtar Respublika Stadionunda seleksiya xarakterli məşqlər keçib. Məqsəd bu yaşda olan uşaqları seçmək və onları Azərbaycan yığma komandasına cəlb etməkdir.

Vüqar Məmmədovla görüşüb fikirlərini öyrəndik. O bildirdi ki, bu gün ölkənin bütün regionlarında idmanın inkişafına xüsusi diqqət göstərilir. Naxçıvana ilk dəfədir gəldiyini və gördüklərindən heyrətləndiyini dilə gətirən baş məşqçi burada futbolçular üçün yaradılan şəraitin mükəmməl səviyyədə olduğunu vurğuladı: “Uşaqların məşqini, ikitərəfli oyunlarını izlədim. Demək olar ki, istedadlı uşaq çoxdur. Çatışmayan yeganə cəhət oyun təcrübələrinin az olmasıdır. Bu da zamanla düzələn haldır. Seçimlərdə 30-dan çox uşaq iştirak edirdi. İki gün ərzində onların məşqlərdə və oyunlarda göstərdikləri bacarıqları diqqətlə izlədim. Artıq seçimimi də aparmışam və yaxın günlərdə onları yığma komandanın heyətinə cəlb edəcəm”.

Qeyd edək ki, qarşıdakı aylarda Azərbaycanın digər yaş qruplarının baş məşqçiləri də muxtar respublikaya dəvət olunacaqlar.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, Şahtaxtinski küçəsi, döngə 3, ev 1-də yaşamış Şirinova Səkinə Məmmədağa qızının adına olan 1781 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 931